Əssalamu aleykum va rahmatullah

Bu məqalədə Peyğəmbərin (səllallahu aleyhi və səlləm) sünnə (fərz namazlarına aid namazlar) və nafilə namazlarının adlarını və onların vaxtlarını qeyd etməyə çalışacam. Qeyd edim ki, sünnə (fərz namazlarına aid namazlar) və nafilə namazlarını səssiz və səsli qılmaq olar, yəni hər iki halda da qılmaq olar. Aşağıda sünnə və nafilə namazlarının adıcıllığı verilmişdir.

Sübh namazının vaxtı girəndən Günəş çıxanadək qılınan sünnə və nafilə namazları:

1) Dəstəmaz alandan sonra qılınan 2 rükət nafilə namazı. Peyğəmbər (səllallahu aleyhi və səlləm) Bilaldan (Allah ondan razı olsun) soruşmuşdur: "İslama girəndən sonra ən yaxşı əməlini mənə de, çünki mən Cənnətdən sənin ayaq səslərini eşitdim." Bilal dedi: "Ən dəyərli əməlim, hər gün səhər və axşam dəstəmaz alandan sonra namaz qılmağımdır" (Səhih Buxari, Gecə namazı kitabı, 250)

2) Azan və iqamə arasındakı 2 rükət nafilə namazı. Peyğəmbər (səlallahu aleyhi və səlləm) demişdir: "Azan və iqamə arasında namaz vardır". (Səhih Müslim, 838)

3) Azan veriləndən sonra sübh namazının 2 rükət sünnə namazı. Bu sübh namazından əvvəl qılınır. Peyğəmbər (səllallahu aleyhi və səlləm) demişdir: "Hər kim gün ərzində 12 rükət namaz qılarsa, Cənnətdə onun üçün ev tikilər. 2 rükət sübh namazından öncə, 4 rükət zöhr namazından öncə və 2 rükət sonra, məğrib namazından sonra 2 rükət və işa namazından sonra 2 rükət" (Sünən Tirmizi, 380. Şeyx Əlbani, Səhih əl-Cami, 6362. səhihdir)

4) Sübh namazını qıldıqdan sonra, gün çıxana qədər və gün çıxandan 15 dəqiqəyə kimi nafilə namazları qılmaq olmaz. Bu vaxt nafilə namazlarının qadağan olunduğu vaxtdır. Peyğəmbər (səllallahu aleyhi və səlləm) demişdir: "Sübh namazını qıl, sonra gün çıxanadək namaz qılma." (Səhih Müslim, 832).

Günəş çıxan andan (üfüqdən bir nizə hündürlüyündə qalxana qədər) səmanın ortasında (zenitdə) olana qədər qılınan sünnə və nafilə namazları:

1) Duha namazı. Duha namazı iki rükət və daha çox cüt sayda qılınan sünnət namazıdır. Bu namazın neçə rükət qılınmasına heç bir məhdudiyyət yoxdur. Aişə (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (səllallahu aleyhi və səlləm) dörd rükət Duha namazı qılar və istədiyi qədər rükətlərin sayını artırardı" (Səhih Müslim, 1662)

2) Dəstəmaz alandan sonra qılınan 2 rükət nafilə namazı.

Zöhr namazının vaxtı girəndən Əsr namazının vaxtı girənə kimi qılınan sünnə və nafilə namazları:

1) Dəstəmaz alandan sonra qılınan 2 rükət nafilə namazı.

2) Əgər məscidə gedərsizsə, məscidə girəndən sonra, oturmamışdan əvvəl qılınan Təhiyyət (Məscidə salam) namazı: Peyğəmbər (səllallahu aleyhi və səlləm) demişdir: "Sizdən biriniz məscidə daxil olduqda iki rükət namaz qılmamış oturmasın" (Səhih Müslim, 712)

3) Azan və iqamə arasındakı 2 rükət nafilə namazı.

4) Zöhr namazından öncə qılınan zöhr namazının sünnə namazları. 2+2 rükət qılınır. Peyğəmbər (səllallahu aleyhi və səlləm) demişdir: "Hər kim gün ərzində 12 rükət namaz qılarsa, Cənnətdə onun üçün ev tikilər. 2 rükət sübh namazından öncə, 4 rükət zöhr namazından öncə və 2 rükət sonra, məğrib namazından sonra 2 rükət və işa namazından sonra 2 rükət" (Sünən Tirmizi, 380. Şeyx Əlbani, Səhih əl-Cami, 6362. səhihdir)

5) Zöhr namazından sonra qılınan 2 rükət sünnə namazı.

6) Əgər Cümə namazıdırsa, bu namazdan sonra əgər məsciddəsizsə, bu halda 2+2 rükət namaz qılın. Əgər evə qayıdacaqsızsa, bu halda evdə 2 rükət namaz qılın. Peyğəmbər (səllallahu aleyhi və səlləm) demişdir: "Cümə namazından sonra kim istəsə 4 rükət (2+2) namaz qılsın" (Səhih Müslim, 881). Abdullah ibn Ömər rəvayət edir ki, Peyğəmbər (səllallahu aleyhi və səlləm) Cümə namazından sonra evə gələndən sonra, 2 rükət nafilə namazı qılardı" (Səhih Müslim, 882)

Əsr namazının vaxtı girəndən məğrib namazının vaxtı girənə kimi qılınan nafilə namazları:

1) Əsr namazının özünəməxsus sünnə namazı olmadığından, ancaq nafilə namazları barədə var.

2) Dəstəmaz alandan sonra qılınan 2 rükət nafilə namazı.

3) Əsr namazından əvvəl 4 rükət (2+2) nafilə namazı qılmaq. Peyğəmbər (səllallahu aleyhi və səlləm) demişdir: "Allah rəhmi Əsr namazından öncə 4 rükət (2+2) namaz qılanın üzərinə olsun" (Sünən Tirmizi, 395. Şeyx Əlbani, Səhih əl-Cami, 3493. həsəndir)

4) Azan və iqamə arasındakı 2 rükət nafilə namazı.

5) Əsr namazından sonra Günəş batanadək nafilə namazları qılmaq olmaz, zəruri olan nafilə namazlarından başqa, bunu sonda qeyd edəcəm. Peyğəmbər (səllallahu aleyhi və səlləm) demişdir: "Əsr namazından Günəş batanadək namaz yoxdur" (Səhih Müslim, 827)

Məğrib namazının vaxtı girəndən İşa namazının vaxtı girənə kimi qılınan sünnə və nafilə namazları:

1) Dəstəmaz alandan sonra qılınan 2 rükət nafilə namazı.

2) Azan və iqamə arasındakı 2 rükət nafilə namazı.

3) Məğrib namazından sonra 2 rükət sünnə namazı: Peyğəmbər (səllallahu aleyhi və səlləm) demişdir: "Hər kim gün ərzində 12 rükət namaz qılarsa, Cənnətdə onun üçün ev tikilər. 2 rükət sübh namazından öncə, 4 rükət zöhr namazından öncə və 2 rükət sonra, məğrib namazından sonra 2 rükət və işa namazından sonra 2 rükət" (Sünən Tirmizi, 380. Şeyx Əlbani, Səhih əl-Cami, 6362. səhihdir)

4) Məğrib namazından İşa namazınadək qılınan nafilə namazları. Yəni, hər namaz 2 rükət qılınır və namazların qədərində məhdudiyyət yoxdur. Huzeyfə (Allah ondan razı olsun) demişdir: "Peyğəmbər (səllallahu aleyhi və səlləm) məğrib namazını qılandan sonra işa namazınadək (nafilə) namazları qıldı." (Əhməd, 22926. Şeyx Əlbani, İrva əl-Ğəlil, 470. səhihdir)

İşa namazının vaxtı girəndən Sübh namazının vaxtı girənədək qılınan sünnə və nafilə namazları:

1) Dəstəmaz alandan sonra qılınan 2 rükət nafilə namazı.

2) Azan və iqamə arasındakı 2 rükət nafilə namazı.

3) İşa namazından sonra 2 rükət sünnə namazı: Peyğəmbər (səllallahu aleyhi və səlləm) demişdir: "Hər kim gün ərzində 12 rükət namaz qılarsa, Cənnətdə onun üçün ev tikilər. 2 rükət sübh namazından öncə, 4 rükət zöhr namazından öncə və 2 rükət sonra, məğrib namazından sonra 2 rükət və işa namazından sonra 2 rükət" (Sünən Tirmizi, 380. Şeyx Əlbani, Səhih əl-Cami, 6362. səhihdir)

4) Əgər Ramazan ayıdırsa, İşa namazından sonra 8 rükət (2+2+2+2) Təravih namazı qılmaq olar və 3 rükət (2+1) vitr namazı qılmaq olar. Həm evdə qılmaq olar, həm də camaatla qılmaq olar. Aişə (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (səllallahu aleyhi və səlləm) məsciddə gecələrin birində (Ramazanda) namaz qıldı və camaat da onunla bərabər bu namazı qıldı. Ertəsi gün yenə namaz qıldı və əvvəlkindən də çox camaat onunla bu namazı qıldılar. Üçüncü (və dördüncü) gün yenə bu hal təkrar oldu və ondan sonra Peyğəmbər (səllallahu aleyhi və səlləm) camaatla namaz qılmağa gəlmədi. O gecənin səhəri Peyğəmbər (səllallahu aleyhi və səlləm) dedi: "Sizin bu namazı qılmaq üçün belə çox sayda cəm olduğunuzu gördüm və onun sizə fərz buyrulacağından qorxduğum üçün camaat namazına gəlmədim" (Səhih Müslim, 761)

5) Təhəccüd namazları qılmaq, yəni Sübh namazınadək neçə rükət istəsəz gecə namazları qıla bilərsiz. Hər namaz iki rükətdir (yəni, cüt-cüt qılınır) və sonda isə vitr namazı qılın. Çünki Peyğəmbər (səllallahu aleyhi və səlləm) demişdir: "Gecə namazlarının sonuncusunu vitr edin." (Səhih Müslim, 751).

Müəyyən vaxtlarda qılınan namazlar:

1) Günəş və ayın tutulması zamanı qılınan Küsuf namazı. İki rükətdir. Peyğəmbər (səllallahu aleyhi və səlləm) demişdir: "Günəş və ya ay

tutulan andan açılanadək namaz qılın" (Səhih Müslim, 911)

2) İstixarə namazı. İki rükətdir. Cabir ibn Abdullah (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər (səllallahu aleyhi və səlləm) Qurandakı surələri bizə öyrətdiyi kimi istixarə duasını da bizə öyrədər və deyərdi: Sizdən biriniz çətin vəziyyətə düşdükdə iki rək'ət namaz qılsın və desin: "Allahummə inni əstəxirukə bi ilmikə və əstəqdirukə bi qudratikə və əs'əlukə min fadlikə-l-azim. Fə innəkə təqdiru və lə əqdiru və tə'ləmu və lə ə'ləmu və əntə alləmu-l-ğuyub. Allahummə in kuntə tə'ləmu ənnə həzə-l-əmra xayrun li fi diyni və məaşi və aqibəti əmri fəq-durhu li və yəssirhu li summə barik li fih. Və in kuntə tə'ləmu ənnə həzə-l-əmra şərrun li fi diyni və məaşi və aqibəti əmri fəs-rifhu anni vəs-rifni anhu vəq-dur liyə-l-xeyra heysu kənə summə ərdini bih" (Səhih Buxari, 6841)

3) Xauf (qorxu) namazı. İki rükətdir. Həyəcan anlarında qılınan namaz. Cabir ibn Abdullah əl-Ənsari (Allah ondan razı olsun) rəvayət edir ki, "Mən Peyğəmbər (səllallahu aleyhi və səlləm) ilə qorxu namazını qıldım. O, bizi iki cərgəyə düzdü və düşmən mövqeyi bizimlə qiblə arasında olduğu vəziyyətdə namaza başladı. Biz onunla bərabər təkbir və ruku etdik, sonra da rukudan qalxdıq. O, birinci səf ilə bərabər səcdə etdiyi zaman ikinci səf düşmənə qarşı dayanıb gözlədi. Onlar (hər iki) səcdəni etdikdən sonra ikinci səf də səcdə etdi. Ayağa qalxdıqdan sonra isə cərgələr yerlərini (1-ci cərgə 2-ci cərgənin, 2-ci cərgə də 1-ci cərgənin yerinə keçməklə) dəyişdirdi və ikinci rükəti də əvvəlki rükət kimi qıldıq. Sonra isə hamımız onunla bərabər salam verib namazı bitirdik" (Səhih Müslim, 840)

4) İstisqa namazı - Dua edib Allahdan yağış nazil etməsini istəmək deməkdir. İki rükətdir. Abdullah ibn Zeyd ibn Asim əl-Mazini (Allah ondan razı olsun) rəvayət edir ki, "Peyğəmbər (səllallahu aleyhi və səlləm) yağışın nazil olmasını Allahdan istəmək üçün əbasını tərsinə çevirib (geyindi), qibləyə tərəf döndü və dua etdi. Sonra iki rükət səslə namaz qıldı" (Səhih Müslim, 897)

Nafilə namazlarının qadağan olunduğu vaxtlarda zərurət üzündən qılınan nafilə namazları - İstixarə namazı, Xauf namazı, Küsuf namazı, Təhiyyət namazı və digərləri.

Hazırladı - Əli Zülfüqar

http://alizulfuqar.ucoz.ru/publ/gund_lik_sunn_v_nafil_namazlari/1-1-0-92